AZƏRBAYCAN RESPUBLİKASININ
İQTİSADİYYAT NAZİRLİYİ YANINDA
DÖVLƏT VERGİ XİDMƏTİ

# LOTEREYALARIN KEÇİRİLMƏSİ HAQQINDA

BAKI – 2024

**Lotereya** - lotereya təşkilatçısı tərəfindən lotereya biletlərinin yayılması, lotereya iştirakçıları arasında uduş fondunun (virtual lotereya istisna olmaqla) oynanılması və uduşlu lotereya biletlərinin sahiblərinə uduşların verilməsi (ödənilməsi) yolu ilə keçirilən kütləvi oyun

**Stimullaşdırıcı lotereya** - malın (işin, xidmətin) satışını stimullaşdırmaq məqsədilə həmin malı (işi, xidməti) almış şəxslər arasında keçirilən lotereya

**Tirajlı lotereya** - uduş fondu əvvəlcədən təyin edilmiş vaxtda oynanılan lotereya

**Ani lotereya** - uduşu lotereyanın iştirakçısı tərəfindən lotereyada iştirak hüququnu təsbit edən lotereya bileti əldə etdikdən dərhal sonra digər lotereya iştirakçılarından asılı olmadan müəyyən olunan lotereya

**Məqsədli lotereya** – Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı ilə mədəniyyət, sosial, səhiyyə, idman, təhsil və digər dövlət əhəmiyyətli layihələrin maliyyələşdirilməsi məqsədilə keçirilən lotereya

## Lotereya təşkilatçısı tərəfindən təqdim edilməli sənədlər barədə

Lotereyanın (stimullaşdırıcı lotereya istisna olmaqla) qeydiyyata alınması üçün lotereya təşkilatçısı lotereyanın ilk oyununun keçirilməsinə azı **10 (on) iş günü** qalmış İqtisadiyyat Nazirliyinə aşağıdakı sənədləri **kağız daşıyıcıda və ya elektron formada** təqdim etməlidir:

- lotereyanın qeydiyyata alınması üçün **ərizə** (Ərizədə lotereya təşkilatçısının adı, olduğu yer, lotereyanın adı və forması göstərilməlidir);
- lotereyanın şərtləri;
- lotereyada istifadə olunacaq lotereya biletinin (elektron kod formasında olan biletlər istisna olmaqla) nümunəsi;
- "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 30.5-ci maddəsinin tələbləri nəzərə alınmaqla hüquqi şəxslərin dövlət reyestrindən çıxarış;
- son maliyyə ili üzrə, bir ildən az müddətdə fəaliyyət göstərdikdə isə bütün fəaliyyət dövrü üzrə təsdiq edilmiş maliyyə hesabatları (lotereyanın ilk dəfə qeydiyyata alınması halı istisna olmaqla).

Stimullaşdırıcı lotereyanın təşkilatçısı lotereyanın keçirilməsinin başlanmasına azı 20 (iyirmi) iş günü qalmış İqtisadiyyat Nazirliyinə aşağıdakı sənədləri **kağız daşıyıcıda və ya elektron formada** təqdim etməlidir:

- stimullaşdırıcı lotereyanı keçirmək niyyətində olduğu barədə **bildiriş** (bildirişdə lotereya təşkilatçısının adı, olduğu yer, lotereyanın adı və növü göstərilməlidir);
- stimullaşdırıcı lotereyanın şərtləri;
- stimullaşdırıcı lotereyada istifadə olunacaq lotereya biletinin (elektron kod formasında olan lotereya biletləri istisna olmaqla) nümunəsi;

- stimullaşdırıcı lotereya təşkilatçısının dövlət qeydiyyatı haqqında şəhadətnamənin notarial qaydada təsdiq olunmuş surəti;
- stimullaşdırıcı lotereya təşkilatçısının vergi orqanları tərəfindən uçota alınması haqqında sənədin surəti;
- stimullaşdırıcı lotereya tapşırıq müqaviləsinə əsasən keçirildiyi halda həmin müqavilənin lotereyanın keçirilməsini tapşıran şəxs tərəfindən təsdiq edilmiş surəti.

Stimullaşdırıcı lotereya təşkilatçısının dövlət qeydiyyatı haqqında şəhadətnamənin notarial qaydada təsdiq olunmuş surəti və vergi orqanları tərəfindən uçota alınması haqqında sənədin surəti (bu sənədlərdə baş vermiş dəyişikliklərin olması halları istisna olmaqla) eyni lotereya təşkilatçısı tərəfindən sonrakı stimullaşdırıcı lotereyaların keçirilməsi məqsədilə edilən müraciətlər zamanı təqdim edilməsi tələb olunmur.

## Lotereya təşkilatçısı tərəfindən təqdim edilən sənədlərə baxılması

**İqtisadiyyat Nazirliyi lotereya şərtlərində göstərilən**

- müddəaların aydınlaşdırılmasını və ya
- onlara konkretləşdirici müddəaların əlavə edilməsini,
- habelə ərizədə (bildirişdə) və ona əlavə edilmiş sənədlərdə aradan qaldırılması mümkün olan və imtinaya (qadağaya) səbəb olmayan çatışmazlıqlar aşkar edildikdə onlar təqdim edildiyi tarixdən etibarən

**7 (yeddi) iş günü** müddətində lotereya təşkilatçısından tələb edə bilər.

Bu halda lotereyanın qeydiyyatı barədə qərarın qəbul edilməsi müddətinin axımı dayandırılır və dayandırılmış müddət qərarın qəbul edilməsi müddətinə daxil edilmir. Çatışmazlıqlar aradan qaldırıldıqdan sonra müddətin axımı bərpa olunur.

Lotereya təşkilatçısı tərəfindən sənədlər təqdim edildiyi tarixdən etibarən **7 (yeddi) iş günündən** gec olmayaraq İqtisadiyyat Nazirliyi lotereyanın **qeydiyyata alınması** və ya bundan **imtina** barədə qərar qəbul edib, bu barədə lotereya təşkilatçısına **məlumat** təqdim etməlidir.

Stimullaşdırıcı lotereyanın təşkilatçısı tərəfindən sənədlər təqdim edildiyi tarixdən **15 (on beş) iş günündən gec olmayaraq** İqtisadiyyat Nazirliyi stimullaşdırıcı lotereyanın keçirilməsini qadağan edə bilər. Bu müddət ərzində stimullaşdırıcı lotereyanın keçirilməsi qadağan olunmadıqda, lotereya təşkilatçısı lotereyanı keçirmək hüququnu əldə edir.

## Lotereyanın qeydiyyata alınmasından imtina edilməsi (stimullaşdırıcı lotereyanın keçirilməsinin qadağan edilməsi)

- Lotereya təşkilatçısı tərəfindən təqdim edilməli sənədlər tam şəkildə təqdim edilmədikdə;
- ərizəyə (bildirişə) və ona əlavə olunmuş sənədlərə “Lotereyalar haqqında“ Qanunun tələblərinə cavab verməyən və ya təhrif olunmuş məlumatlar daxil edildikdə;
- lotereyanın təşkilatçısı İqtisadiyyat Nazirliyinə onunla bağlı qəbul etdiyi “Lotereyalar haqqında“ Qanunla müəyyən olunmuş icrası məcburi göstərişləri icra etmədən, yeni lotereyanın keçirilməsi ilə bağlı müraciət etdikdə;
- lotereya təşkilatçısının stimullaşdırıcı lotereyanı keçirməsinə məhkəmə tərəfindən xitam verildiyi tarixdən **6 (altı) aydan az vaxt keçdikdə**.

“Lotereyalar haqqında“ Qanunun tələblərinin pozulmasında təqsirli olan şəxslər Azərbaycan Respublikasının Mülki Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində və Cinayət Məcəlləsində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar.

## Lotereyanın dayandırılması və onun keçirilməsinə xitam verilməsi

**İqtisadiyyat Nazirliyi aşağıdakı hallarda lotereyanın keçirilməsini dayandırır**

- Normativ hüquqi aktların tələblərinin və ya lotereyanın şərtlərinin lotereya təşkilatçısı tərəfindən pozulması hallarının aşkar edilməsi ilə əlaqədar səlahiyyətli orqan tərəfindən göndərilən bildirişin icrası lotereya təşkilatçısı həmin göstərişi müəyyən edilmiş müddətdə (bildirişi aldığı tarixdən **20 (iyirmi) iş günü** müddətində) icra etmədikdə;
- lotereyanın təşkili və keçirilməsi zamanı törətmiş olduğu dələduzluq, korrupsiya cinayətləri və qulluq mənafeyi əleyhinə olan cinayətlərə görə lotereya təşkilatçısının vəzifəli şəxsinə və (və ya) tiraj komissiyasının üzvünə qarşı cinayət işi başlandıqda;
- lotereyanın təşkilinə və ya keçirilməsinə qanunsuz müdaxilə (uduş şansının dəyişdirilməsinə səbəb olan müdaxilə) aşkar edildikdə;
- lotereya şərtlərinin əhəmiyyətli dərəcədə (1000 və ya daha çox lotereya iştirakçısının hüquqlarının pozulması və ya pozuntu (pozuntular) nəticəsində iştirakçılara dəyən zərərin ümumi məbləğinin **100 000 (yüz min) manat** və daha artıq təşkil etməsi) pozulması halları aşkar edildikdə.

Lotereya təşkilatçısı lotereyanın dayandırılması haqqında səlahiyyətli orqanın qərarını aldığı tarixdən **30 (otuz) iş günü** müddətində yuxarıda qeyd olunmuş lotereyanın dayandırılmasına səbəb olan halları aradan qaldırmadıqda və ya bu barədə məlumatı təqdim etmədikdə, səlahiyyətli orqan lotereyanın keçirilməsinə xitam verilməsi barədə məhkəmədə vəsatət qaldırır.

**Qeyd:** Lotereya biletlərinin satışı zamanı vergi ödəyicisi pul hesablaşmalarını Dövlət Vergi Xidmətinin elektron informasiya sisteminə real vaxt rejimində qoşulmuş nəzarət-kassa aparatı vasitəsi ilə həyata keçirilməsi tələb olunmur.

Lotereya təşkilatçısı tərəfindən lotereya biletlərinin satışından əldə edilmiş vəsaitdən **6 faiz** dərəcəsi ilə, lotereya biletlərinin satıcısı tərəfindən isə lotereya təşkilatçısının ona verdiyi haqdan (mükafatdan) **4 faiz** dərəcəsi ilə sadələşdirilmiş vergi hesablanır.

# QEYD ÜÇÜN

# QEYD ÜÇÜN

# MALİYYƏ SANKSİYALARI, FAİZLƏR VƏ DİGƏR MƏSULİYYƏT TƏDBİRLƏRİ BARƏDƏ

Vergi və sığorta qanunvericiliyinin pozulması hallarına görə tətbiq olunan maliyyə sanksiyaları və digər məsuliyyət tədbirləri barədə məlumatı “Maliyyə sanksiyaları, faizlər və digər məsuliyyət tədbirləri barədə Yaddaş” adlı bukletdən əldə edə bilərsiniz.

VERGİLƏRƏ AİD NƏŞRLƏR

195

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az